**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

***Əlyazması hüququnda***

**MAHİR NADİR OĞLU İBRAHİMOV**

# XƏZƏR PROBLEMİ SAHİLYANI DÖVLƏTLƏRİN XARİCİ SİYASƏTİNDƏ
## (XX ƏSRIN SONU – XXI ƏSRIN ƏVVƏLLƏRI)

**İxtisas: 5507.01 – Beynəlxalq münasibətlər tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI - 2016**

***Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsində yerinə yetirilmişdir.***

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor **P.Q.Darabadi**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **C.M.Cəfərov**
tarix üzrə elmlər doktoru, professor **Ə.İ.Muxtarova**

**Aparıcı müəssisə:** Bakı Dövlət Universiteti "Azərbaycan tarixi (humanitar fakultələr üzrə)" kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 - "Ümumi tarix", 5503.02 - "Vətən tarixi", 5507.01 - "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 - "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «____» __________ 2016 - ci il tarixli iclasında, saat «____» keçiriləcəkdir.

**Ünvan:** Az-1143, Azərbaycan Respulikası, Bakı şəhəri, H.Cavid pr., 115.

Dissertasiya ilə AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

**Avtoreferat** «____» _________ 2016-ci ildə göndərilmişdir.

D.01.161 Dissertasiya Şurasının elmi katibi,
tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı:** Müasr Azərbaycan Respublikasının beynəlxalq münasibətlər tarixi məsələləri milli tarixşünaslıq üçün siyasi əhəmiyyət kəsb etməklə bərabər, həm də elmi aktuallıq kəsb edir. 1991-ci ildə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası, öz siyasi və təbii sərvətlərinin, o cümlədən Xəzər dənizində ona məxsus sektorda sərbəst fəaliyyət göstərmək hüququ və buna Xəzəryanı dövlətlərin münasibətləri məsələlərinin bu gün tarixi və elmi cəhətdən tədqiqi xüsusi əhəmiyyət daşıyır. Bütün bunlar isə Xəzər dənizi hövzəsində yaranmış yeni beynəlxalq münasibətlər tarixinin tədqiqini zərurətə çevirmişdir.

Xəzər dənizi bir XIX əsrin birinci yarısından başlayaraq İran və Çar Rusiyasının, daha sonra Sovet İttifaqının mövcud sərhədləri daxilində olmuş və hər iki ölkə təhlükəsizliyə, habelə ticarət əlaqələrinə üstünlük vermək baxımından əməkdaşlıq etmişlər. Razılaşdırılmış həmin hüquqi rejim bu dövlətlərə həm də müəyyən iqtisadi və siyasi üstünlüklər vermişdir. Nəticədə nə İran tərəfi nə də Sovet İttifaqı regionda gələcəkdə mövcud ola biləcək mübahisəli problemlərin meydana çıxacağina ciddi yanaşmamışlar. Ümummilli lider Heydər Əliyev Xəzərin statusu probleminin meydana çıxmasını və sahilyanı dövlətlərin bu istiqamətdə mövcud maraqlarını şərh edərək demişdir: "...Biz statusun müəyyənləşməsinin əleyhinə olmamışıq. Burada fikirlər müxtəlifdir. Azərbaycan və Qazaxıstan sektorial bölgü tərəfdarı, Rusiya, İran və Türkmənistan isə kondominium tərəfdarıdır. Ancaq bu prinsip Xəzərdə heç vaxt olmayıb. Sektorial bölgü isə 1970-ci ildən mövcuddur"[1]. Beləliklə sahilyanı dövlətlərin müzakirə mövzusuna çevrilmiş Xəzərin istifadə rejimi ilə bağlı meydana çıxan problemlərin aktuallığının səbəblərini aşağıdakı müddəalarla ifadə etmək olar.

-SSRİ-nin süqutundan sonra Xəzər bölgəsində yeni siyasi və geocoğrafi şəraitin yaranması və bu istiqamətdə baş verən tarixi-siyasi proseslərin inkişaf dinamikasının araşdırılmasına olan zərurətin meydana çıxması. Bu mübahisəli məsələdə qarşılıqlı razılaşmaya yardım məqsədi ilə Xəzər dənizinin mövcud probleminin tarixi xronoloji aspektdə tədqiqatı Azərbaycan tarix elmində aktuallıq kəsb edir.

---

[1]Əliyev H. Müstəqilliyimiz əbədidir. 46 clddə, 11-ci kitab, Bakı: Azərnəşr, 2003, s.12-13.

-Xəzər dənizinin hüquqi statusu probleminin yaranma reallıqları, tarixi kökləri, və regionda maraqları olan dövlətlərin yeritdikləri siyasətin məqsəd və istiqamətlərinin tədqiqinin Azərbaycan tarix elmində əhəmiyyət kəsb etməsidir. Qeyd edilməlidir ki, Azərbaycan dövlətinin siyasi,iqtisadi, mənəvi potensialından və coğrafi məkanın verdiyi imkanlardan səmərəli, məqsədyönlü şəkildə istifadə edərək milli dövlət strateqiyasını qurmağa, özünə yeni-yeni tərəfdaşlar tapmağa, müştərək layihələr həyata keçirməyə daha çox ehtiyacı var idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xəzər regionundakı geosiyasi vəziyyətin istiqamətlərini şərh edərkən demişdir: ”Dünyanın indiki siyasi durumunda Xəzər və onun enerji ehtiyatları nəinki azərbaycan və region üçün, bütün dünya üçün müstəsna əhəmiyyət kəsb edir”[2]. Beləliklə, tədqiqata cəlb etdiyimiz məsələ Xəzəryanı ölkələrlə ABŞ və Qərb dövlətləri arasında qarşılıqlı əməkdaşlığı zəruri edən amillərin və həmin dövlətlərin Xəzər siyasətinin, bu siyasətin mahiyyət və məqsədinin təhlilini verməkdən, eləcədə indiyədək ölkəmizin tarix elmində ayrıca tədqiqat obyekti olmadığını göstərməkdən ibarətdir.

-Sovet dövləti dağıldıqdan sonra Xəzər dənizinin hüquqi statusu məsələsi sahilyanı ölkələrin xarici siyasətində yeni müstəviyə çıxaraq müzakirə obyektinə çevrilməyə başladı. İlk vaxtlar problemin yeniliyindən istifadə edərək hər bir dövlət heç bir elmi əsas olmadan, müxtəlif vasitələrlə Xəzər dənizi hövzəsində daha çox paya sahib olmağa can atırdılar. Lakin, onların mövqeyində beynəlxalq hüquqda təsbit olunmayan, habelə, regionda mövcud olan beş müstəqil dövlətin təhlükəsizliyinin və milli maraqlarının təminatına cavab verməyən zidd ideyalar əks olunmuşdur. Bununla belə istər Rusiya, istərsə də İran regionda təhlükəsizliyin və qarşılıqlı münasibətlərin Xəzər dənizinin sərvətlərindən istifadənin hansı formada həyata keçirilməsindən daha çox asılı olduğunu zaman keçdikcə dərk edirdilər. Nəticədə rəsmi dairələr Xəzər dənizinin hüquqi statusu problemi ilə yaxından maraqlanmağa başladılar. Su hövzələri haqqında beynəlxalq hüquq və mövcud müqavilə praktikaları ilə yanaşı bu sahədə alim və tədqiqatçıların əsərlərinə ehtiyac daha da artdı. Məsələnin müzakirəsi zamanı antiazərbaycan mövqeyi tutmuş dövlətlərə cavab vermək üçün ölkəmizin mövqeyini konkret faktlarla əsaslandıracaq və bu mövqeyin regionun təhlükəsizliyinə, Xəzər dənizi bölgəsində sülhə və qarşılıqlı əməkdaşlığa xidmət edəcəyini elmi cəhətdən təhlil edən tədqiqat işlərinə ehtiyac duyulmağa başladı.

---

[2] Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003, с.216.

-Məlum olduğu kimi, Xəzər dənizinin enerji ehtiyatları uğrunda mübarizədə yeni bir problem – mövcud xammalın daşınması problemi ortaya çıxmışdır ki , bunu ekspertlər və neft şirkətləri başçıları yekdil bir fikirlə ifadə edirdilər. Xəzər dənizinin karbohidrogen ehtiyatlarının xarici bazarlara daşınmasının mümkün variantlarının müzakirəsi zamanı uzunmüddətli enerji təhlükəsizliyini təmin etmək üçün bir neçə boru sisteminin yaradılması haqqında fikir mübadiləsi olmuş, istehlakçıların maraqları nəzərdən keçirilmişdir. Bütün bunlar Azərbaycan tarix elmi üçün xüsusi əhəmiyyət kəsb etdiyindən onun dissertasiya səviyyəsində tədqiqata cəlb edilməsi xüsusi aktuallıq kəsb edir.

-Məlumdur ki, SSRİ-nin dağılması ərəfəsində postsovet məkanında iqtisadi münasibətlər artıq tamamilə pozulmuşdu. Dövlət müstəqilliyinin ilk illərindən Xəzəryanı dövlətlər yeni yaranan, o cümlədən fəaliyyətdə olan iqtisadi qurum və təşkilatlarda birləşərək bazar amillərinin təsiri altında inkişaf edən inteqrasiya proseslərinə qoşuldular. Aktuallıq kəsb etdiyi üçün bütün bunların tədqiqinə böyük ehtiyac var.

Nəhayət, istər Türksoy və MDB daxilində, istərsə də iki və çoxtərəfli münasibətlər çərçivəsində Xəzəryanı ölkələr arasında mədəniyyət və incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsi ilə yanaşı sahilyanı ölkələrin bu istiqamətdə yeritdikləri siyasət Xəzər dənizinin mövcud hüquqi statusu probleminin həllində beynəlxalq əməkdaşlığa yeni imkanların açılması ilə bərabər həmin sahədə elmi araşdırma aparılmasını da aktual edir.

**Tədqiqatın xronoloji çərçivəsi** 1991-2014-cü illəri əhatə edir. Xronoloji çərçivənin müəyyən edilməsində bir sıra tarixi hadisə və proseslər kompleksi nəzərə alınmışdır. Tədqiqatın başlanğıcının 1991-ci ildən götürülməsi problemin məhz həmin ildən başlayaraq müzakirə predmetinə çevrilməsi faktına əsaslanır. 2014-cü il sentyabrın 29-da Xəzərin hüquqi statusuna dair Həştərxanda keçirilən sahilyanı ölkələrin dövlət başçılarının sayca dördüncü olan Sammiti xronoloji çərçivənin con hüdudu olaraq götürülmüşdür və sözügedən interval problemi araşdırmağa imkan verir.

**Problemin öyrənilmə dərəcəsi.** Dissertasiya işi yazılarkən geniş ədəbiyyatdan istifadə edilmişdir. Bu məqsədlə ölkəmizdə, habelə Rusiya, İran, Qazaxıstan, Türkmənistan və başqa ölkələrdə çapdan çıxan kitab və məqalələr tədqiqat işinə cəlb edilmiş, lazım gəldikdə geniş təhlil əsasında tənqidi münasibət bildirilmişdir.

Bu istiqamətdə Ümummilli lider Heydər Əliyevin 1993-2003-cü illərdə fəaliyyətinin əsas məqamlarını əks etdirən məruzə, nitq və çıxışlarının toplandığı çoxcildli kitablar dövlətimizin xarici siyasət məsələlərini, o cümlədən tədqiqata cəlb etdiyimiz Xəzər probleminin tənzimlənməsindəki mövcud siyasi kursu öyrənməkdə əhəmiyyətli mənbə rolunu oynayır və sözügedən problemin yaranma səbəblərini, gedişini, habelə sahilyanı dövlətlərin tutduğu mövqelərin təhlili üçün xüsusi əhəmiyyət kəsb edir[3].

Prezident İlham Əliyevin tədqiqata cəlb edilmiş fundamental əsərində Xəzər bölgəsinin geosiyasi durumu və gələcəkdə bu sahədə mövcud problemlərin həllində Azərbaycan dövlətinin xarici siyasəti qarşısında duran vəzifələr əhatəli təhlil edilir[4].

R.Ə.Mehdiyevin əsərləri isə Azərbaycanın müasir inkişaf strategiyasının və Xəzərə dair konsepsiyanın öyrənilməsi üçün gərəkli mənbədir[5].

Azərbaycan alimlərindən coğrafiyaşünas alim Q. Gülün əsərlərində Xəzərin tarixi, ondan müxtəlif dövrlərdə istifadə rejimi və region dövlətlərinin iqtisadi, siyasi həyatında oynadığı rolu, əhəmiyyəti haqqında məlumat verilir[6]. S. Vəliyevin əsərində Xəzər ətrafı bölgənin ictimai-siyasi və sosial həyatı haqqında, o cümlədən, mövcud qarşılıqlı əlaqələrin müxtəlif tərəflərinə nəzər salınır. Eyni zamanda həmin müəllifin əsərlərində Xəzər haqqında irəli sürülən fikir və mülahizələr onun coğrafi vəziyyətinin xarakterizəsi baxımından əhəmiyyətlidir[7]. M. İsmayilov, M. İbrahimovun əsəri Azərbaycanın neft sənayesinin regiondakı hadisələrə təsirini, onun əhəmiyyətini və bir sıra tarixi məqamların öyrənilməsi üçün məqsədəuyğundur[8].

---

[3]Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 46 cilddə, 5-ci və 6-cı kitablar. Bakı: Azərnəşr, 1998.

[4] Əliyev İ.H. Böyük siyasətdə reallıqlar və perispektivlər. Bakı: Qanun, 1999, 317 s. Yenə onun. Алиев И.Г. Каспийская нефть Азербайджана. М:, Известия, 2003, 712 с.

[5] Mehdiyev R.Ə. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2008, 791 s.

[6]Гюл К.К. Каспийское море. Б.: Азнефтеиздат, 1956, 190 с.

[7]Велиев С.С. Древний, древний Азербайджан. Б.:, Гяджлик, 1983, 148 с. Yenə onun. Xəzər haqqında deyirlər // Elm və həyat jurnalı, 1977, № 3, s. 30-31.

[8] İsmayılov M.Ə. İbrahimov M. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı: Elm, 1991, 281 s.

Bununla yanaşı, hələ problemin yarandığı ilk vaxtlardan vəziyyətin real təhlili R. Məmmədovun əsərlərində geniş şəkildə öz əksini tapmişdir[9].

X. Yusifzadənin əsərində dənizin tarixi, onun enerji ehtiyatlarının uzun əsrlər xalqların həyatında oynadığı rolu və sonrakı proseslərdə Xəzərdən istifadədə ölkələrin, xüsusilə SSRİ ilə İran arsındakı müqavilələrdə hər bir müttəfiq respublikanın mövcud su ərazisinin olması araşdırılır, ümumi istifadə prinsipinin bu hövzəyə şamil olunmaması faktlarla göstərilir[10].

M. Əhmədovun əsərində XX əsrin 90-cı illərindən sonra Xəzəryanı dövlətlərin bu hövzəyə yönəlmiş ciddi siyasi-iqtisadi maraqları və bu maraqlarda ölkələrin etdikləri xarici siyasi gedişlər araşdırılır[11].

P.Darabadinin əsərlərində Qafqaz və Xəzər regionunda gedən geosiyasi proseslərə nəzər salınmış, onun ətrafında baş verən hadisələrin inkişaf dinamikası sadalanır[12].

E. Nəsirovun əsərində Qərb ölkələri ilə Xəzər hövzəsində əməkdaşlığın müxtəlif tərəfləri, imzalanmış neft müqavilələri dərin siyasi, iqtisadi xarakterdə araşdırılır və bu əsasda sahilyanı ölkələr arasındakı qarşılıqlı əlaqələr haqqında çox geniş olmasa da yığcam şəkildə məlumat verilir[13].

S. Həsənovun əsərində dövlətlərarası münasibətlərdə Xəzər amilinin rolu araşdırılmış, sahilyanı dövlətlərin statusla bağlı müxtəlif illərdə ortaya qoyduqları fikir və mülahizələr öyrənilmiş, problemin

---

[9]Məmmədov R.F. Международно-правовой статус Каспийского моря: вчера, сегодня, завтра. Б.: Азернешр, 2006, 456 с., Yenə onun. Azərbaycanın neft diplomatiyasi və Xəzərin Beynəlxalq hüquqi statusu. “Azərbaycan” qəz., Bakı, 2000, 15 noyabr, №196. Yenə onun. Xəzərin hüquqi rejiminin beynəlxalq hüquqi aspektləri // Beynəlxalq hüquq jurnalı, 1998, № 1, s.11. Yenə onun. Военно-политическая активность в акватории Каспийского моря в постсоветский период (международно-правовые аспекты) // Центральная Азия и Кавказ, 2007, №4(52), с.102.

[10] Yusifzade Khoshbakht. The status of the Caspian. Azerbaijan International SOCAR, 1994, autumn, №2.4.

[11]Əhmədov M.B. Azərbaycan: yeni neft erası və beynəlxalq siyasət. Bakı: Elm, 1997, 118 s.

[12]Дарабади Парвин. Кавказ и Каспий в мировой истории и геополитике XXI века. М.: Весь Мир, 2010, 214 с.

[13]Nəsirov E.X. Azərbaycan nefti və beynəlxalq müqavilələr (1991-1999). Bakı: Respublika Xatirə Kitab Nəşriyyatı, 1999, 104 s.

getdikcə dərinləşərək beynəlxalq əhəmiyyət kəsb etməsinə toxunulmuşdur[14].

M. Qasımovun əsəri xarici siyasət məsələlərinin araşdırılmasında aktualdır[15].

G. Məmmədzadənin əsəri İran-İslam Respublikası ilə Azərbaycan Respublikası arasında elmi-mədəni əlaqələrin müasir vəziyyətini öyrənməkdə əhəmiyyətlidir[16].

Bütün bunlarla yanaşı Xəzər probleminə dair digər azərbaycanlı tədqiqatçılar dövrü mətbuatda və elmi jurnallarda çoxlu məqalələr dərc etdirmiş, problemin müxtəlif tərəflərini araşdırmışlar. Fikrimizcə, bunları geniş təhlil etməyə ehtiyac yoxdur. Rus alimlərindən A. Duqin əsərlərində Rusiyanın Xəzər bolgəsindəki geosiyasi maraqları və bu istiqamətdə apardığı siyasətin araşdırılması xüsusi yer tutur[17]. Digər rus alimləri, Y. Şişkov[18], S.Jukov, O. Reznikovanın[19] məqalələrində regionda iqtisadi konteksdə qarşılıqlı inteqrasiya münasibətlərinin dövlətlərin xarici siyasətindəki məsələlərə təsiri araşdırılır.

İran İslam Respublikası müəlliflərinin tədqiqat işləri Xəzərə münasibətin tarixi köklərini və bu hövzəyə getdikcə artan marağın güclənməsini, eləcə də problemə münasibətdə tutduğu mövqeyin öyrənilməsi üçün əhəmiyyətlidir. M. Dəbirinin[20], Mohammed-Reza Hafiz-

---

[14]Həsənov S.S. Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi. Bakı: Elm, 2002, 170 s.

[15]Qasımov M.C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995). Bakı: 1996, 135 s. Yenə onun. Beynəlxalq münasibətlər tarixi // II hissə. 1946-1999-cu illər, Bakı: 1999, 182 s.

[16]Məmmədzadə G.M. İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin inkişafı. Bakı Universiteti Nəşriyyatı, 2004, 169 s.

[17]Дугин А.Г. Основы геополитики. Геополитическое будущее России. Мыслить пространством. М.: АРКТОГЕЯ центр, 2000, 928 с.

[18]Шишков Ю.В. Интеграсионные процессы на пороге XXI века. Почему не интегрируются страны СНГ. М.: НП III тысячелетие, 2001, 480 с.

[19]Жуков С.В., Резникова О.Б. Экономические взаимодействие на постсоветском пространстве // Кавказ & глобализация, Том I. (1) 2006, с.109-113.

[20] Dabiri M. New Approach for the Legal Regime of the Caspian Sea as a Basis for Peace and Development. // Iranian Journal of International Affairs, 1994, (spring - summer), p. 28-46.

Nianın[21] və digərlərinin əsərlərində regionun tarixinə nəzər salınır, Xəzərdən istifadə məsələsinə toxunulur, habelə bölgənin geosiyasi vəziyyəti, İran dövləti üçün əhəmiyyəti təhlil olunur. Tədqiqat işində Qazaxıstan alim və mütəxəssislərinin, xüsusən Xəzər problemi ətrafında aparılan müzakirələrdə bilavasitə iştirakçı olan V. Qizzətovun[22] əsərlərindən geniş istifadə edilmişdir.

**Tədqiqat işinin mənbəşünaslıq bazası.** Dissertasiya işi həm də bir sıra sənədli mənbələr əsasında yazılmışdır. İstifadə edilən həmin mənbələri əsasən aşağıdakı kimi qruplaşdırmaq olar. Azərbaycan Respublikasının rəsmi dövlət sənədləri, habelə buraya Xarici İşlər Nazirliyi[23], ARDNŞ Baş ofisinin Mərkəzi Arxivi[24], ARMAİ [25] və digər dövlət orqanlarının arxiv sənədləri, AMEA-nın kitabxana fondu, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, rəsmi dövlət internet saytlarında yerləşdirilən sənədlər daxildir. Heydər Əliyevin 1993-2003- cü illərdə verdiyi bəyanatlar, notalar, müsahibələr problemin öyrənilməsində tutarlı mənbədir. Bu mənbələrdə həm də Xəzərətrafı ölkələrin münasibətlərinin tarixi kökləri, inkişaf istiqamətləri, diplomatik müzakirələrin gedişi və müxtəlif dövlətlərin mövqeyinə münasibət öz əksini tapmışdır.

---

[21]Mohammed-Reza Hafiz-Nia. Differences and Conflicts in the Caspian Geopolitical Region // Amu-Darya, The Iranian Journal of Central Asian Studies, Tehran, 1999, № 3, vol.4, p.310-324.

[22]Гиззатов В.Х. Каспийская нефть и международная безопасность // вып.2. Материалы международной конференции. М., 1996. Yenə onun. Переход обсуждения проблемы правового статуса Каспия с уровня экспертов, на уровень МИД не привел каким-либо сдвигом в этом вопросе. Газ. «Панорама» (Казахстан), 1996, №44. Yenə onun. Правовой статус Каспийского моря и вопросы, связанные с трубопроводами // Саясат (Казахстан), 1999, №8. Yenə onun.The status of the Caspian. Caspian Basin journal, 1995, (autumn).

[23]X.İ.N. F.26, siy. 19, s. 1. Нефть и национальная политика // Краткий обзор Брента Скаукрофта, президента организации Форум международной политики, члена совета директоров компании Пеннзойл... Октябрь, 1995.

[24]ARDNŞ. Geologiya və Geofizika şöbəsi. Kənar təşkilatlarla yazışmalar (01.01.98-24.06.98.). Письмо заместителю министра нефти и газа Туркменистана Председателью Консерна «Балканебитгазсенегат» господину Кульниязову Амангелды Кулытагановичу.

[25]ARMAİ ф. 28с., оп.1, сд. хр. №58, л.2-6., ф. 28с, оп.1с, сд. хр.-178, л.-129, ф. №710, оп.1, ед. хр.100, л.2-5. (дата документа 21 октября 1927 года).

Problemi öyrənmək üçün mühüm mənbə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xəzəryanı dövlətlərə səfəri zamanı etdiyi məruzə, nitq və çıxışlarının toplandığı kitablardır. Bu kitablar Xəzər probleminin nizamlanması, onun sülh və əməkdaşlıq dənizi kimi istifadəsi uğrunda dövlətlər arasında aparılan məqsədyönlü siyasəti öyrənməkdən ötrü əhəmiyyətlidir. Digər bir rəsmi mənbə dövlətçilik tariximizin intibah dövrünü əhatə edən əsər kimi "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" adlı fundamental kitablar toplusudur. Dissertasiyada bir sıra məsələlərin təhlilində bu əsərlərə müraciət olunmuşdur. Eyni zamanda tədqiqat prosesində Xəzəryanı dövlətlərin rəsmi nümayəndələrinin, dövlət və hökumət başçılarının çıxışlarından da istifadə edilmişdir. Araşdırılan problemə dair həm yerli, həm də xarici mətbuat səhifələrində zəngin materiallar toplanmışdır.

Bütün yuxarıda göstərilən ilk mənbələrin öyrənilməsi problemin geniş müqayisəli təhlil əsasında araşdırılmasına imkan verir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini SSRİ-nin süqutundan sonra yaranmış yeni geocoğrafi məkanda sahilyanı dövlətlərin diplomatik münasibətlərində Xəzərin istifadə rejiminə dair apardıqları siyasət, predmeti isə mövcud problemin həlli istiqamətində həmin ölkələrin xarici siyasətlərinin xüsusiyyətləri və mexanizmləri təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Azərbaycan dövlətinin Xəzər probleminin həllinə dair xarici siyasi kursu və bununla bağlı irəli sürülmüş konseptual müddəalar, habelə tədqiqatçıların mövzu ilə bağlı fundamental əsərləri işin nəzəri bazasını, müasir tarixi tədqiqatlarda qəbul olunmuş analiz və sintez, ümumiləşdirmə, induksiya və deduksiya, tarixilik, müqayisəli və sistemli siyasi təhlil metodları isə metodoloji əsasını təşkil etmişdir.

**Dissertasiya işinin məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi sahilyanı ölkələrin 1991-2014-cü illərdə mövcud problemə dair aparilan xarici siyasət kursunda əlaqələrin müasir vəziyyətini, bu dövlətlər üçün tarixi əhəmiyyətini, onun həllində Azərbaycan və digər Xəzəryanı dövlətlərin ortaya qoyduqları mövqelərin təhlilini vermək, habelə mövcud siyasi, iqtisadi, elmi-mədəni münasibətləri qarşılıqlı şəkildə araşdırmaqdır. Bu məqsədə çatmaqdan ötrü konkret olaraq aşağıdakı tədqiqat vəzifələrinin yerinə yetirilməsinə cəhd edilmişdir.

- Xəzər dənizindən istifadə rejiminin tarixinə diqqət yetirmək müqayisəli təhlil aparmaq;

- SSRİ dağıldıqdan sonra yaranmış yeni tarixi şəraitdə Xəzər bölgəsinin beynəlxalq maraq dairəsindəki oynadığı rolu araşdırmaq və onun regional və beynəlxalq əməkdaşlığa təsir imkanlarını öyrənmək;

- Xəzər dənizinin hüquqi statusu məsələsinin həlli istiqamətində Azərbaycanın və digər sahilyanı dövlətlərin diplomatik fəaliyyətinin tarixini və siyasi mənzərəsini araşdırmaq;

- Xəzər dənizindən istifadə rejimində ilk mövqeləri və problemə dair baxışları tədqiq etmək, bu məqsədlə sahilyanı dövlətlərin tədqiqatçılarının əsərlərini öyrənmək, mülahizələrini araşdırmaq, sistemləşdirmək və ümumiləşdirmələr aparmaq;

- Xəzər dənizinin enerji ehtiyatlarının dünya bazarlarına nəqli prespektivlərinin regional təhlükəsizlik sisteminə təsirinə nəzəri diqqət yetirmək, bununla da onun bölgədəki mövcud problemin həllində yeri və rolunu öyrənmək;

- Xəzər dənizi ətrafı dövlətlərin sıx iqtisadi inteqrasiyası probleminin həllinə təsir edən mənfi halların araşdırılması və bu istiqamətdə sahilyanı ölkələrin konstruktiv mövqelərini fəallaşdırmaq üçün konkret tövsiyələr irəli sürmək;

- Azərbaycan və digər sahilyanı dövlətlərin ictimai-sosial, siyasi-iqtisadi, elmi-mədəni konteksdə regional əməkdaşlığının və qarşılıqlı münasibətlərinin əhəmiyyətini öyrənmək və nəzəri-metodoloji təhlilini vermək;

**Dissertasiya işinin elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi konkret olaraq aşağıdakı müddəalardan ibarətdir.

- Problem Azərbaycan tarixi elmində ilk dəfə olaraq kompleks şəkildə elmi araşdırmaya cəlb edilmişdir;

- Zəngin mənbə və ədəbiyyat əsasında xronoloji ardıcıllıqla müxtəlif xarakterli çoxlu faktların toplanması, sistemləşdirilməsi və hərtərəfli təhlili əsasında Xəzər bölgəsinin strateji bölgə kimi geniş aspektdə qarşılıqlı əməkdaşlıq və regional təhlükəsizlik prosesindəki rolu araşdırılır. Bu əsasda Xəzər probleminin geosiyasi durumu, onun nizamlanması istiqamətində dövlətlərin mövcud siyasəti və milli maraqları öyrənilir;

- Azərbaycan Respublikası, Rusiya Federasiyası, İran İslam Respublikası, Qazaxıstan Respublikası və digər ölkələrdə nəşr edilən çoxlu əsərlərdən, dövrü mətbuatdan istifadə edilməsi nəticəsində elmi dövriyəyə xeyli yeni fakt və materiallar cəlb edilmiş, həmin materialların öyrənilməsi və təhlili əsasında Xəzər probleminin keçmiş və müasir tarixi, geosiyasi

kökləri, problemə münasibətdə qarşı dövlətlərin mövqeyinin real vəziyyəti verilmişdir;

- Xəzəryanı ölkələrin mütəxəssislərinin Xəzərə dair konsepsiyaları və mülahizələri öyrənilmiş, müqayisəli təhlil edilmiş və sistemləşdirilmişdir. Bu mülahizələrin region üçün mənfi və müsbət tərəfləri konkret faktlarla izah edilmişdir;

- Problemin ilk vaxtlarında Xəzəryanı dövlətlərin regionda yeritdiyi siyasət araşdırılmışdır. İldən-ilə yenilənən diplomatik münasibətlərin səbəbləri təhlil edilmişdir;

- Xəzəryanı dövlətlərin rəhbərləri ilə Xəzərin statusunun nizama salınması istiqamətində aparılan danışıqlarda 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti olmuş Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan diplomatiyasının rolu ümumiləşdirilmişdir;

- Qarşılıqlı əməkdaşlığın çoxtərəfli münasibətlərdə yeri və nəticələri geniş təhlil edilmişdir. Bu münasibətlərin formalaşmasında Qara və Xəzər dənizləri hüdudundakı bölgə dövlətləri və xalqları arasında siyasi əlaqələrlə yanaşı iqtisadi inteqrasiya proseslərinin mövcud durumu və onun Xəzər probleminə təsir imkanları, həmçinin mədəniyyət sahəsində də əməkdaşlığın inkişaf etdirilməsi və dərinləşməsi ilə bağlı fikir və mülahizələr irəli sürülmüş, vahid iqtisadi və mədəni məkanın yaradılması kimi məsələlər xüsusi olaraq qeyd edilmişdir;

- Elmi tədqiqat işinin yekununda Xəzər dənizinin milli sektorlara bölünməsi prosesi və bu əsasda bölgədə sıx əməkdaşlığın gücləndirilməsi üçün praktik tövsiyyələr verilmişdir;

**Dissertasiyanın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəalarından və nəticələrindən istifadə edilə bilər.

- Beynəlxalq münasibətlər tarixinə və siyasi elmlərə dair gələcəkdə tədqiqat işlərinin hazırlanması;

- Beynəlxalq münasibətlər tarixinə və siyasi elmlərə dair dərslik, dərs vəsaiti və digər ümumiləşdirilmiş əsərlərin hazırlanmasında;

- Elmi-pedaqoji fəaliyyətdə;

- Ali məktəblərin müvafiq fakültələrində xüsusi kursların, mühazirələrin oxunmasında və seminarların keçirilməsində;

- Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində;

- Azərbaycan Respublikası ilə Xəzəryanı dövlətlərin ikitərəfli və çoxtərəfli münasibətlərinin daha da inkişaf etdirilməsində;

- Xəzəryanı xalqların gələcək əməkdaçlığında;

**Dissertasiya işinin aprobasiyası.** Dissertasiya işi AMEA A. A. Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın beynəlxalq əlaqələri tarixi" şöbəsində hazırlanmış və müzakirəyə çıxarılmışdır. Dissertasiyanın aprobasiyası məqsədi ilə tədqiqatın bir sıra nəticələri məqalələr və tezislər formasında Azərbaycanda və xaricdə nəşr olunan elmi jurnallarda çap olunmuş, iddiaçının elmi-nəzəri və elmi-praktik konfranslarda etdiyi çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, 3 fəsil, 6 yarımbaşlıq, nəticə və istifadə olunmuş ədəbiyyatların siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Giriş** hissəsində mövzunun aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, mənbə və nəzəri-metodoloji bazasının icmalı verilmişdir. Girişdə, həmçinin, tədqiqatın məqsəd və vəzifələri müəyyən edilmiş, elmi yenilikləri verilmiş, nəzəri və praktik əhəmiyyəti göstərilmişdir. Bununla yanaşı tədqiqat işinin aprobasiyası və quruluşu haqqında məlumat verilir.

**I Fəsli "Xəzər regionunda cərəyan edən hadisələrin tarixi-siyasi təhlili dövlətlərarası münasibətlərin obyekti kimi"** adlanır və iki yarımfəsildən ibarətdir. Bu fəslin **"Xəzərə sahiblik uğrunda mübarizədə tarixi-siyasi münasibətlərin dinamikası"** adlanan ilk yarımfəslində Xəzər bölgəsində əməkdaşlığın xarakterini işıqlandırmaq üçün tədqiq edilən məsələlər sırasında hər şeydən öncə regionun keçmişinə tarixi baxış edərək İran və Çar Rusiyası, sonradan İran və Sovet İttifaqı arasında bağlanmış müqavilələr, sazişlər nəzərdən keçirilmişdir. Beləliklə bu istiqamətdə Xəzəryanı məkanda baş vermiş ictimai-siyasi hadisələrin müasir siyasi proseslərlə müqayisəli təhlili verilmişdir. Yarımfəsildə göstərilir ki, XVIII əsrdən etibarən mühüm iqtisadi və geosiyasi əhəmiyyətə, o cümlədən təbii sərvətlərə malik olan Xəzər dənizi Rusiyanın diqqət mərkəzinə çevrilmişdir. Ümumiyyətlə, Rusiya dövlətinin Xəzər bölgəsində nüfuz dairəsini müntəzəm genişləndirmək uğrunda etdiyi cəhdlər hələ eramızın VIII-IX əsrlərindən başlayır. Bunların işğalçılıq niyyətlərinin sonucu olaraq rus qoşunları 1813-cü ildə Gülüstanda və 1828-ci ildə Türkmənçayda Qacar şahlarını, 1829-cu ildə иsə Osmanlı imperatorunu Azərbaycan torpaqları və

Xəzərətrafı ərazilərlə bağlı yeni müqavilə bağlamağa məcbur etdilər.[26] Beləliklə, həmin sazişlərə uyğun olaraq ruslar işğal etdikləri əraziləri öz əlində saxlamaqla bərabər, eyni zamanda Xəzər dənizində istisnasız hərbi donanma saxlamaq və şah hökuməti ilə müstəsna ticarət etmək hüququ əldə etdilər. Bununla yanaşı həmin illərdə Rusiya Şimal-Qərbi Türküstanda da öz mövqelərini möhkəmlətməyə başlamışdı. Məlumdur ki, XVI əsrin ortalarında Noqay ordasının süqutundan sonra Monqol və Sibir xanlığının ərazisində Qazax xanlığı təşəkkül tapmışdı. XVIII əsrin əvvəllərindən başlayaraq Cunqar xanlığı tərəfdən real təhlükə yaranmışdı. Ona görə də Qazax xanı Əbülhayr 1731-ci ildə rüs təbəəliyini qəbul etməsi barədə çar hökumətinə müraciət etdi. Bu müraciət Rusiyanın yaxın gələcəkdə Xəzərin şimal-şərqində də movqeyinin möhkəmlənməsində mühüm rol oynadı. Nəhayət çöx keçmədən Xəzərin 80 faizdən çox hissəsi Rusiyanın tabeliyinə keçdi. Xəzər uğrunda XX əsrin əvvəllərində gedən bu amansız mübarizəyə baxmayaraq Türkmənçay (1828) müqaviləsi (Xəzərlə bağlı iki dövlətin imzaladığı ticarət, gəmiçilik haqda 1834-cü il müqaviləsini nəzərə almasaq) 1921-ci ilədək öz qüvvəsində qalmışdır. Lakin, bağlanan 1921-ci il müqaviləsi və sonrakı müqavilələrdə də Rusiya öz hərbi qüdrətindən istifadə edərək Xəzər bölgəsinin böyük bir hissəsini öz əlində saxlamağa nail olmuşdur. Beləliklə, İranla Sovet İttifaqı arasında bağlanmış müqavilə-hüquq praktikasında və beynəlxalq hüquq doktrinasına müvafiq olaraq Xəzər dənizinə qapalı dəniz beynəlxalq hüquqi-status təsbit edilmiş, bu isə öz növbəsində sonrakı proseslərdə sərhəd gölünə tətbiq olunan bir sıra normaların təkmilləşdirilməsi və əsaslandırılması yolunda maneəyə çevrilmişdir

Birinci fəslin **"SSRİ-nin süqutu və Xəzər dənizinin beynəlxalq maraq dairəsinə çevrilməsi"** adlı ikinci yarımfəslində Xəzər bölgəsində maraqları olan digər qüvvələrin – ABŞ başda olmaqla Qəqb dövlətlərinin regiona yönəlik siyasətinə nəzər yetirilir və belə müdəa irəli sürülür ki, "soyuq müharibə"də məğlub tərəf olan Rusiya ABŞ-ın onun ənənəvi"nüfuz dairəsin"də fəallaşmasına alışa bilmirdi. İran tərəfi isə ideoloji düşməninin onun qonşuluğuna gəlməsindən çox narahat idi. Türkiyə isə həm NATO-nun fəal üzvü, həm də ABŞ-ın Qafqazda və ümumilikdə Xəzər regionunda geosiyasətinin dayağı qismində rəqib kimi qəbul edilirdi. Beləliklə, SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikası və sahilyanı digər dövlətlər

[26]Жильцов С.С., Зонн И.С., Ушков А.М. Геополитика Каспийского региона. М.: Международные отношения, 2003, 254 с.

müstəqillik qazandıqları ilk illərdə həm bölgənin, həm də dünyanın geosiyasəti təzadlı, mürəkkəb xarakter almışdı. Sözügedən mürəkkəbliyin ən təhlükəli tərəfi ondan ibarət idi ki, bu təzadlar həm regionun siyasi və iqtisadi inkişafına neqativ təsir göstərirdi, həm də yeni yaranmış müstəqil respublikalarda düşünülmüş, prioritetləri müəyyən olunmuş xarici siyasət strategiyası qurulmayacağı təqdirdə həmin ölkələrdə çox ciddi təhlükələrin perspektivini yaradırdı. Digər tərəfdən Qərb ölkələri də yaranmış yeni şəraitdə regiona yönəlmiş olan geosiyasi iddialarını hələ tam formalaşdırmamış, başqa sözlə desək bölgədə "geosiyasi boşluq" hökm sürürdü. Azərbaycan Respublikası isə xarici siyasətinin nə proritetlərini, nə də başlıca istiqamətlərini müəyyən etməmişdi. Dövlətin məntiqli bir xarici siyasəti yox idi. Regionun xarici siyasi durumu separatizm, etnik qarşıdurmalar, yeni hökumətlərin səriştəsizliyi və qonşu dövlətin imperiyapərəst iddiaları ilə mürəkkəbləşirdi. İlk dəfə məhz 1993-cü ilin iyununda Ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdışından başlayaraq Azərbaycan Respublikasının geosiyasi vəziyyətini və beynəlxalq münasibətlərə təsir etmə imkanlarını dərin nəzəri təhlili əsasında xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkənin mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi[27]. Beləlkilə, dahi siyasi xadim Heydər Əliyev Azərbaycan Respublikasının həyatında müstəsna əhəmiyyətli digər məsələlər kimi Xəzərin statusu probleminin həllində də çox mühüm fəal strateji xətt formalaşdırmış, sahilyanı dövlətlərin maraq və mənafelərinin qorunmasını nəzərə almış, bölgənin gələcək sülh naminə inkişafını həyata keçirəcək diplomatik missiyanın müəllifi olmuşdur[28].

**İkinci fəsil "Sahilyanı ölkələrin qarşılıqlı siyasi əlaqələrində Xəzərin istifadə rejimi və diplomatik münasibətlər (1991-2014-cü illər)"** adlanır. Bəhs etdiyimiz fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **"Xəzər probleminin meydana çıxması və sahilyanı dövlətlərin mövqeyində status məsələsi"** adlanir. 1991-cı ildən sonra Xəzər regionunda yeni geosiyasi vəziyyətin  yaranması sahilyanı ölkələrin müxtəlif milli maraqlarının meydana çıxması ilə nəticələndi. Həmin milli maraqlar zəngin sərvətlərə və əlverişli coğrafi mövqeyə malik Xəzər

---

[27] Əliyev İ.H. Böyük siyasətdə reallıqlar və perispektivlər. Bakı: Qanun, 1999, s.25.

[28]Mahmudov Y.M. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: Təhsil, 2002, s.183.

dənizindən kimin nə qədər pay alacağını və sahiblik edəcəyini özündə daha çox əks etdirirdi. Bu yarımfəsildə problemin müzakirəsindəki geosiyasi maraqların meydana gəlmə səbəbləri, sahilyanı ölkələrin mövqelərindəki milli maraqların reallıqlara üyğunluq dərəcəsi və mahiyyəti hadisələrin ardıcıllığı ilə izlənilmiş, elmi təhlilə cəlb edilmişdir.

Vaxtilə keçmiş SSRİ-nin İranla bağladığı müqavilələrdə Xəzər hövzəsinin təxminən 14%-i İranın, 86%-i SSRİ-nin istifadəsində olmuşdur. Buna əsasən 1970-ci ildə Xəzər dənizinin ilk dəfə olaraq sektorlara bölünməsi məsələsi müzakirə edilmiş, Sovet İttifaqının Neft Sənaye Nazirliyi tərəfindən bölgü prinsipi tətbiq olunmuşdur. O dövrün bütün siyasi xəritələrində bu bölgü prinsipcə sərhəd hüdudu olaraq göstərilmişdir. SSRİ isə öz daxili qaydalarına müvafiq ( eyni orta xətt prinsipi üzrə) Xəzər dənizinin ona aid olan 86%-lik ərazisini milli təsərrüfat işləri aparmaq və s. məqsədlərlə dörd Xəzəryanı respublika arasında – Rusiya (19%), Qazaxıstan (29%), Azərbaycan (21%) və Türkmənistan (16%) olmaqla milli sektorlara bölmüş, hər bir müttəfiq respublikanın dəniz ərazilərini (sektorlarını) müəyyən etmişdir[29]. Bununla da Xəzərdə kəşfiyyat işlərinin aparılması və neft-qaz yataqlarının işlənməsi üçün hövzəni milli sektorlara, habelə keçmiş SSRİ-nin quru sərhəddi ilə müəyyən edilən İran sektoruna bölünməsi rejimi həyata keçirilmişdir. Bu bölgü Xəzərin hüquqi, coğrafi vəziyyətindən irəli gəldiyi üçün beynəlxalq təcrübədə hamı tərəfindən qəbul edilmiş orta xətt prinsipi ilə tənzimlənirdi. Sovet İttifaqı dağıldıqdan sonra Rusiya və yeni yaranmış Xəzəryanı dövlətlər -Azərbaycan, Qazaxıstan, Türkmənistan keçmiş SSRİ-nin daxili su sərhədləri çərçivəsində mövcud praktikaya uyğun olaraq, Xəzərdə hər bir dövlətin öz sektoruna aid olan hissələrinə nəzarət etməyə başladılar. 1994-cü ildə“Əsrin müqaviləsi” imzalandıqdan sonra İran dövləti ilə bir cəbhədə birləşən Rusiya Xəzər dənizini bütün imkan və sərvətləri ilə birlikdə, bu və ya digər yolla uzun müddət tam inhisarında saxlayan ölkələr kimi ən azı keçmiş dövrün xiffətindən doğan iddialarla dolu etiraz və ciddi mübahisələrə səbəb olan bəyanatlar verməyə başladılar. Xəzərin mövcud problemini sahilyanı ölkələr qarşısında çəkişmə, mübahisə və qeyri-sabitlik obyektinə çevirməyə çalışan tərəflərdən fərqli olaraq Azərbaycan prezidenti Heydər Əliyev bütün görüşlərdə öz ölkəsinin mövqeyinin

[29]Yusifzade Khoshbakht: The status of the Caspian. Azerbaijan International, SOCAR, 1994, autumn, №2.4.

düzgünlüyünü konkret faktlarla əsaslandırırdı[30]. Tədqiqat işinin bu yarımfəslində Xəzər problemi ətrafında aparılan danışıqlar prosesində hər bir dövlətin müəyyənləşdirdiyi mövqe əsas xətt kimi götürülmüş, bu istiqamətdə sahilyanı dövlətlərin ortaya qoymuş olduqları konsepsiyalar ayrıca öyrənilmiş, münasibət bildirilmişdir. Bütün bunların nəticəsi olaraq Xəzərin statusu məsələsində Azərbaycanın təklif etdiyi milli sektorlar prinsipi əsasında hamı tərəfindən razılaşdırılacaq həll variantının tapılmasına zəruriyyət yaranmışdı. Yəni status məsələsinə münasibətdə müzakirələrin gedişi beynəlxalq hüquq normalarının tətbiqindən daha çox Xəzəryanı dövlətlər arasında ümumi razılaşdırılmış variantın qəbul edilməsini tələb edirdi. Araşdırmalar göstərir ki, Xəzər probleminin həlli ətrafında müzakirələr sonrakı illərdə də davam etmiş və bu istiqamətdə Rusiya-Qzaxıstan-Azərbaycan üçlüyünün fəaliyyəti daha çox nəzərə çarpır. Beləliklə, "2001-ci ilin yanvar ayının 9-da Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında "Bakı Bəyannaməsi", o cümlədən, "Azərbaycan Respublikasinin və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında birgə bəyanat"ı imzalandı"[31]. Hər iki sənəd Xəzərin statusunun həllində müstəsna əhəmiyyətə malik oldu. Ona görə ki, bu sənədlər Azərbaycan Respublikasının milli maraqlarına cavab verməklə yanaşı, Xəzərin bölünməsində həlledici mövqeyə malik Rusiya Federasiyası ilə imzalanmışdır . Prosesin davamı olaraq 29 noyabr 2001-ci ildə Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında saziş imzalandı. Beləliklə, Azərbaycanın təklif etdiyi orta xətt üzrə milli sektorlara bölmək prinsipi üzrə imzalanmış bu ikinci saziş (birinci Rusiya-Qazaxıstan arasında imzalanmışdır) Xəzər probleminin həllinin bir qədər də yaxınlaşdırmış oldu. Uzun illərin mübahisə predmeti olan Xəzərin hüquqi statusu öz həllini məhz prezident Heydər Əliyevin təşəbbüsçüsü olduğu formul əsasında tapır. Qazaxıstan-Rusiya, Rusiya-Azərbaycan, Azərbaycan-Qazaxıstan ikitərəfli müqavilələri imzalanmışdır. İndiyədək tam ziddiyət təşkil edən Rusiya-Azərbaycan-Qazaxıstan üçbucağı ümumi məxrəcə gəlmiş və bu faktiki olaraq problemin 60%-nin həlli, başqa sözlə, artıq çoxluğun formalaşması deməkdir. Nəhayət, yekun olaraq bildirmək

---

[30]Yusifzade Khoshbakht. The Development of the Oil and Gaz İndustry. Azerbaijan İnternational, SOCAR, summer, №7, 1996, p.36-39.

[31] Rusiya-Azərbaycan sənədlərinin imzalanması. "Xalq qəz.", Bakı, 2001, 10 yanvar, № 4.

istəyirik ki, Xəzəryanı ölkələrin əməkdaşlığı, yaxud əməkdaşlıq cəhdləri əyani surətdə göstərmişdir ki, Xəzərin hüquqi statusu problemi təkcə hüquqi qərar qəbul edliməsi yolu ilə deyil, o cümlədən, sahilyanı dövlətlərin razılaşdırılmış siyasi iradəsi ilə iki və çoxtərəfli müqavilələr praktikası əsasında mərhələli həllini tapacaqdır.

**"Enerji ehtiyatlarının dünya bazarlarına nəqli problemi və onun region dövlətlərin qarşılıqlı əməkdaşlığına təsiri"** adlı ikinci yarımfəsildə neft ixracı coğrafiyasının və nəqli marşrutlarının geosiyasətə tabe olduğu vurğulanır və dövlətlərin xarici siyasətlərinin əsas prioritetlərini təşkil etdiyi göstərilir. Xəzər neftinin nəqli marşrutlarının mövcud durumu və həlli istiqamətləri tədqiqatın mövzu obyekti ilə sıx əlaqədə araşdırılır. Xüsusilə ABŞ-ın regiondakı geostrateji maraqlarında Xəzər neftinin nəqli marşrutlarının seçimi önəmli yer tutduğu göstərilir. Digər tərəfdən bölgənin siyasi sabitliyi və iqtisadi inkişaf dinamikasının məhz neft kəmərlərinin istiqamətlərinin düzgün seçimindən asılı olduğu sübut olunur. Maraqlı cəhət ondan ibarətdir ki, Xəzər neftinin daşınmasında müntəzəm olaraq müxtəlif təkliflər irəli sürülür. Belə planlardan biri də Mərkəzi Asiya, Ukrayna, Azərbaycan və Gürcüstan liderlərinin dəstəklədikləri "Avrasiya nəqliyyat dəhlizi" layihəsidir ki, həmin yol ilə Mərkəzi Asiya və Qafqazın enerji ehtiyatlarının Rusiyadan yan keçməklə daşınması nəzərdə tutulur. Bu məqsədlə 1996-cı ildən etibarən hazırlıq işlərinə başlandı ki, ilk öncə Bakı və Odessa limanları arasında dəniz və dəmiryolları daşımalarının əlaqələndirilməsi, xüsusən də yüklərin tarifləri və tranziti haqqında müvafiq razılaşmalar imzalandı[32]. Xəzər neftinin xarici bazarlara daşınmasının mümkün variantlarının müzakirəsi zamanı uzunmüddətli enerji təhlükəsizliyini təmin etmək üçün bir neçə boru kəməri sistemi yaradılması haqqında fikir mübadiləsi olmuş, istehlakçıların maraqları nəzərdən keçirilmişdir. Söhbət hər şeydən əvvəl iki ehtimal edilən marşrutdan gedirdi. Onlardan biri "Şimal yolu" adlanırdı ki, bu marşrut Rusiyadan-Çeçenistanın paytaxtı Qroznı şəhərindən keçməklə Qara dənizdəki Novorosiysk limanını birləşdirirdi. Lakin, həmin vaxt Çeçenistanda gedən müharibə buna imkan vermirdi. Qərb tədqiqatçıları Çeçenistanda gedən müharibənin əsas məqsədinin məhz neft kəmərləri üzərində nəzarəti bərpa etməkdən ibarət olduğunu qeyd edir və bu məsələnin həllinin sülh olmadan mümkün olmayacağını daima

[32]Украина и Каспийский регион: благоприятная возможность для Соединенных Штатов. Газ. «Зеркало недели» (Украина) 2001, 7-14 апреля.

vurğulayırdılar [33]. Nəzərdə tutulan digər yola “Qərb” (yaxud “Cənub” və ya “Qafqaz”) yolu adı verilmişdi ki, bu marşrut da Gürcüstandan keçməklə Qara dənizdəki Supsa terminalını birləşdirir. Söz yox ki, ABŞ hökuməti bu variantı irəli sürməklə ilk növbədə transmilli neft şırkətlərinin, habelə yeni yaranan Xəzəryanı ölkələrin Rusiya və İrandan asılılığını azaltmaq məqsədini nəzərdə tutmuşdur. Çünki ilk vaxtlar Rusiyanın regiona təsir imkanları daha çox idi. Digər tərəfdən nəzərdə tutulan enerji xammalı Supsa limanından, istərsə də Novorosiysk limanından dəniz yolu ilə daşınaraq Türkiyənin nəzarətində olan Bosfor və Dardanel boğazlarından ötürülməliydi ki, bu da gələcəkdə yük daşıyan gəmilərin keçid problemini yaradar, o cümlədən ekoloji baxımdan təhlükələrlə yekunlaşa bilərdi. Türkiyə hökuməti isə dəfələrlə bildirmişdi ki, tankerlərin boğazlarda hərəkətinin artması mümkün deyil və onların bu məsələyə münasibətdə ehtiyatlı davranışını əsassız saymaq olmaz. Məhz bu kimi bir sıra amillər Xəzərdən Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına yeni boru kəmərinin çəkilməsi üçün güclü stimul yaratdı. Bu kəmər eyni zamanda digər sahilyanı ölkələrin enerji xammalının Qərb bazarlarına çıxışını təmin edirdi. Xeyli müddət davam edən müzakirələrdən sonra, təklif edilən marşrutların bütün müsbət və mənfi tərəflərini öyrənən Azərbaycan və onun “Əsrin müqaviləsi”ndə iştirak edən tərəfdaşları nəhayət Bakı-Tiflis-Ceyhan layihəsi üzərində dayandı. Bütün bunların nəticəsi olaraq 1999-cu il noyabrın 18-də İstanbulda keçirilən ATƏT-in zirvə toplantısının gedişində İstanbulun Çırağan sarayında xam neftin Azərbaycan Respublikası, Gürcüstan Respublikası və Türkiyə Cümhuriyyətinin əraziləri ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsi ilə nəql edilməsinə dair saziş imzalandı[34]. Azərbaycanın maraqlarını qiymətləndirərkən qeyd etmək lazımdır ki, hələ keçən əsrdə amansız istismar nəticəsində onun quruda yerləşən yataqları xeyli azalmışdır. Ölkəmizin karbohidrogen ehtiyatları daha çox Xəzərin Azərbaycana məxsus sektorundadır və ixrac yollarına münasibətdə çevik mövqeyə malikdir, həmçinin əsas xammal nəqli Rusiyadan yan keçərək BTC və BTƏ kəmərləri vasitəsilə reallaşdırılır. Beləliklə, 1994-cü ildə “Əsrin

[33]Вермишева С. Что стоит за Каспийской нефтью? II. Нефть Азербайджана: реалии без мифов // «Обозреватель - Observer», 1999, №1.

[34] ARDNŞ-in prezidenti Natiq Əliyevin məruzəsi. (ATƏT-in İstanbul sammitinin yekunlarina həsr olunur (AzərTac). “Azərbaycan” qəz., Bakı, 1999, 27 noyabr, № 163.

müqaviləsi"nin imzalanması ilə dünyada neft ölkəsi kimi tanınan Azərbaycan bu gün artıq Avropa məkanının aparıcı qaz təchizatçısına çevrilmək üzrədir.

Xəzəryanı ölkələrin maraqlarına gəlincə onu demək olar ki, SSRİ-nin süqutundan sonra geosiyasi balansın dəyişməsinə baxmayaraq bu bölgənin coğrafi vəziyyəti Rusiya üçün strateji əhəmiyyət daşıyır. İlk baxışda Rusiyanın regionda maraqlarının istiqaməti enerji təhlükəsizliyini möhkəmləndirməyə yönəlsədə əsasən geosiyasi və iqtisadi maraqlar daha çox üstünlük təşkil edir. Rusiya diplomatiyasının əsas prioritet məqsədi özləri üçün sərfəli boru kəmərləri layihələrini – Xəzər boru kəmərləri konsorsiumunu (XBKK), Atırau-Samara, Burqas-Aleksandrupolis, Xəzəryanı qaz kəmərlərini, Mərkəzi Asiya-Mərkəz (MA-M) kəmərlərinin moderinləşdirilməsi və "Cənub axını"nı (Türk axını) reallaşdırmaqdan ibarətdir. Beləliklə, Rusiya tranzit potensialını genişləndirməklə, öz layihələrinin iqtisadi və beynəlxalq hüquq nöqteyi nəzərinə görə rəqabətə davamlı olduğunu göstərərək regiondakı ənənəvi nüfuzunu bərpa etmək niyyətindədir. Qazaxıstanın maraqları əsasən Xəzərin şimal hissəsindəki neft və qaz ehtiyatlarının proqnozuna hesablanmışdır. Məlum olduğu kimi, Xəzərin şimal hissəsində zəngin neft və qaz ehtiyatlarının olması xəbəri yayılan ərəfələrdə Qazaxıstan bu ehtiyatlar üzərində sahibliyinin tanınması və dəniz dibinin beynəlxalq hüquq normaları əsasında bölünməsi üçün fəal diplomatik səylərini daha da artırmışdır. Qazaxıstanın mövqeyi enerji xammalını mövcud fəaliyyətdə olan kəmərlərlə (həmçinin XBK, Atırau-Samara) ixracını nəzərdə tutur. Bundan başqa neftin tankerlərlə nəqli və BTC-yə qoşulmaq razılığı vardır. Çini birləşdirən neft kəməri inşa edilib. Türkmənistanla birlikdə öz ərazisindən keçməklə ÇXR-ni birləşdirən qaz kəmərinin inşasında iştirak edir. Türkmənistanın maraqları isə bir sıra sahələrdə fərqlənir. Ölkənin əsas neft və qaz xammalı dənizdə yerləşən mövcud yataqlardan hasil edilir. Bununla yanaşı bu ölkə Xəzərdə bir sıra enerji yataqlarına iddialıdır ki, həmin yataqlar da Azərbaycanın dənizdəki sektoruna aiddir. Rəsmi Aşqabad qaz ixracı marşrutlarının diversifikasiyasında daha çox maraqlıdır ki, burada da məqsəd Rusiyadan asılılığı azaltmaqdır. Digər tərəfdən Türkmənistan tərəfi Xəzəryanı qaz kəmərinin inşasına və "MA-M" boru xətlərinin modernləşməsinə razılığını bildirmişdir. Hal-hazırda bu ölkə Çin layihəsini reallaşdırır, Əfqanıstan-Pakistan-Hindistan marşrutu üzrə qaz kəmərlərinin tikintisi ilə əlaqədar ehtimalları nəzərdən keçirir və qazın digər bir hissəsini "Nabucco" ilə nəql etmək fikrindədir. Məlumdur ki, Amerika İran arasındakı siyasi soyuqluğa

görə Türkmənistandan başlayaraq İrandan keçməklə Türkiyə və Avropanı birləşdirəcək qaz kəmərlərinin tikintisi müvəqqəti olaraq dayanıb. Ola bilsin yaxın gələcəkdə iqtisadi cəhətdən əlverişli hesab edilən bu layihə həyata keçirilsin. Bu isə Rusiyanın maraqlarına uyğun gəlmir. İranın Xəzər regionuna münasibətdə maraqları enerji amili ilə çox az bağlıdır. Bu onunla əlaqədardır ki, ölkənin əsas enerji ehtiyatları cənub sərhədlərində, xüsusəsn də Fars körfəzi şelfindədir ki, buna nəzərən şimalda Xəzərin İrana məxsus sektorundakı yataqların iqtisadi göstəriciləri aşağı səviyyəli hesab edilir. İranın Xəzər dənizinin karbohidrogen ehtiyatlarının bölünməsində və ixrac kəmərləri ətrafında cərəyan edən diplomatik oyunda iştirakı onu beynəlxalq təcrid olunmadan sığortalamaqla yanaşı, bu dövlətin regionda siyasi, iqtisadi maraqlarının da güclənməsinə zəmin yarada bilər. Ona görə də regiondakı hazırki mövcud geosiyasi və iqtisadi durumu qiymətləndirən İran dövləti Xəzərin yeni beynəlxalq hüquqi statusunun müəyyənləşdirilməsində o qədər də maraqlı deyil, çünki, problemin həlli bu ölkə üçün sərfəli olmayan layihələrin (Xəzərin dibi ilə çəkiləcək boru kəmərləri-M.İ ) reallaşması demək olardı.

“**Xəzəryanı dövlətlərin iki və çoxtərəfli münasibətlərinin əsas istiqamətləri**” adlı **üçüncü fəsil** də iki yarımfəsildən ibarətdir. **“Xəzəryanı bölgədə inteqrasiya prosesləri mövcud iqtisadi reallıqlar kontekstində”** adlı ilk yarımfəsildə iki və çox tərəfli münasibətlər çərçivəsində Xəzər regonu ölkələri arasında mövcud inteqrasiya proseslərinin fəaliyyətdə olan iqtisadi, habelə mədəni qurumlar səviyyəsində inkişaf dinamikası araşdırılr və beləliklə beynəlxalq əməkdaşlığa yeni imkanların açılmasına dair təhlillər verilir. Siyasi münasibətlərin qırılması iqtisadi əlaqələrin pozulmasına və keçmiş postsovet məkanında ağır iqtisadi böhranın yaranmasına səbəb oldu. Belə bir şəraitdə müstəqillik əldə etmiş ölkələr iqtisadi əlaqələri bərpa etmək üçün müxtəlif qurum və birliklər yaratmağa və ya mövcud qurum və birliklərdə birləşməyə meyl edir, iki və çoxtərəfli iqtisadi əməkdaşlıq üçün yollar axtarırdı. Son illərdə bu inteqrasiya ritorikası xeyli genişlənmiş, bəzi müstəqil dövlətlərin inkişaf tempindəki göstəricilər nəzərə çarpacaq dərəcədə yüksəlmişdir. MDB məkanı, xüsusilə də Xəzər regionunun geniş əraziyə, əlverişli strateji yerləşməsinə, zəngin təbii ehtiyatlara malik ölkələri müstəqillik əldə etdikdən sonra beynəlxalq ictimaiyyəti özünə cəlb etmiş, iqtisadi fəaliyyət göstərmək üçün münasib

məkana çevrilmişdir[35]. Region ölkələri investorlar üçün hər hansı vəziyyətdən asılı olmayaraq zəmanətli mühüt yaratmış, qanunlar qəbul etmişlər. Hal-hazırda Xəzəryanı məkanda yerləşən ölkələr müxtəlif iqtisadi qurumlarda fəaliyyət göstərirlər ki, bunlara Müstəqil Dövlətlər Birliyi (MDB), Avrasiya İqtisadi Təşkilatı (AİT), Birlik İqtisadi Məkan Təşkilatı (BİT), Rusiya-Belorusiya İttifaqı, Şanxay İqtisadi Təşkilatı (ŞİT), QUAM, Demokratik Seçim Həmrəyliyi (DSH), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və Ümumdünya Ticarət Təşkilatı(ÜTT) kimi birliklər daxildir.Yuxarıda toxunulan məsələlərlə bağlı deyə bilərik ki, Xəzəryanı ölkələr emaledici sənayenin inkişafına və bu sahədə əməkdaşlığa çox zəif yanaşırlar. Düzdür, SSRİ dövründən qalan müəssisələrarası əlaqələrin qismən də olsa saxlanlılmasına çalışılır, lakin yeni istehsal əlaqələrinin yaradılmasına səy göstərilmir. Bu nöqteyi nəzərdən Xəzəryanı ölkələrin inteqrasiya prosesləri ACEAN üzv dövlətlərinin və ya digər ölklərin regional əməkdaşlığından prinsipcə fərqlənir. Belə ki, həmin ölkələr arasındakı əməkdaşlığın əsas hərəkətverici qüvvəsi emaledici-istehsal sektorudur. Xəzər regionunda isə bu əməkdaşlığın əsas hərəkətverici qüvvəsi xammal, maliyyə və ticarət kapitalıdır. Hesab edirik ki, Xəzər regionu ölkələrinin daxili inteqrasiyanı inkişaf etdirməsi, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin, o cümlədən neft-qaz kimi strateji enerji marşrutlarının seçilməsi və beləliklə də qura biləcəkləri əlaqələr bütövlükdə regionun inkişafına təkan verməklə yanaşı Xəzərin mövcud probleminin həllinə də öz töhvəsini verə bilər.

Dissertasiyanın “**Sahilyanı dövlətlərin münasibətlərində elmi-mədəni əlaqələrin rolu”** adlı ikinci yarımfəsildə Xəzəryanı ölkələr arasında mövcud mədəni əlaqələr dövlətlərarası, hökumətlərarası, nazirliklərarası, habelə qeyri dövlət və ictimai qurumlararası müqavilə və sazişlər əsasında qurulmuş və inkişaf etmişdir. İmzalanmış müqavilə və sazişlərdə mədəni əlaqələrin məqsədi, vəzifələri, forma və növləri və s. müəyyənləşdirilmişdir. Keçmiş sovet respublikalarının müstəqil dövlətlər kimi beynəlxalq arenaya çıxması və öz xarici siyasət prioritetlərini özləri təyin etməsilə mədəni əlaqələr sahəsində də beynəlxalq münasibətlərin yeni formada qurulmasına birbaşa təsir göstərdi. Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi kimi, “...bizim məqsədimiz bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətmək, həm

[35]Фу Чжен Кун. Геополитика Казахстана: между прошлым и будущим. А.: Жеты-Жаргы, 1999, с.171.

də respublikanın elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etməkdən ibarətdir”[36].

Beləliklə, istər TÜRKSOY və MDB daxilində, istərsə də iki və çoxtərəfli münasibətlər çərçivəsində Xəzər regionu ölkələri arasında mədəniyyət və incəsənət sahəsində əlaqələrin inkişaf etdirilməsi və möhkəmləndirilməsi, bu məqsədlə müxtəlif proqram və layihələrin birgə həyata keçirilməsi nəinki Xəzəryanı xalqların, eləcə də Mərkəzi Asiya, Qafqaz regionunda yaşayan xalqların beynəlxalq əməkdaşlığına yeni imkanlar açacaqdır. Hesab edirik ki, regionda sülhün, əmin-amanlığın, mehriban qonşuluğun qorunması və o cümlədən istər iqtisadi, istərsə də elmi-mədəni sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi Xəzəryanı ölkələrin qarşılıqlı münasibətlərinə və siyasi qərarların veilməsinə əhəmiyyətli təsir edəcəkdir.

**Nəticədə** tədqiqatın əsas yekunları sistemləşdirilmiş, əldə edilmiş nəzəri-praktik əhəmiyyət daşıyan elmi müddəalar ümumiləşdirilmiş, tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür. Tədqiqat işinin məqsədi təkcə dövlətlərin əməkdaşlıq mərkəzinə çevrilmiş Xəzər bölgəsində mövcud problemə münasibətdə region dövlətlərinin xarici siyasət kursunu araşdırıb elmi-nəzəri nəticələr çıxarmaq deyil, habelə bu ölkələr arasında siyasi, iqtisadi və elmi-mədəni əlaqələri inkişaf etdirməkdən ötrü əməli təkliflər irəli sürməkdən ibarətdir.

---

[36] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 1c., Bakı: Azərnəşr, 1997, s.205.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır.**

1. Azərbaycan Respublikasının dünyanın aparıcı ölkələri ilə əlaqələrində Xəzər neftinin rolu //AMEA Tarix İnstitutu "Elmi əsərlər" jurnalı,cild 31, Bakı-2009,s.161-166.
2. Xəzər bölgəsi Rusiya-Sovet-İran tarixşünaslığında//"Tarix və onun problemləri", №4, Bakı-2009, s.375-379.
3. Каспийский регион как важный фактор мира и сотрудничества//Журнал «Исторические науки», ИССН 1811-3540, № 1 (37), Москва-2010, s.68-71.
4. Xarici siyasətdə milli mənafe amili//"Dirçəliş-XXI əsr" jurnalı, İyul-Avqust, 147-148/2010, s.202-208.
5. Azərbaycan Respublikasının Xəzəryanı ölkələrlə elmi-mədəni əlaqələrində Heydər Əliyev şəxsiyyətinin rolu//AMEA Fəlsəfə, sosiologiya və hüquq institutu "Elmi əsərlər", №1 (16), Bakı-2011, s.276-278.
6. «НАБУККО-реалии и перспективы в интеграционных процессах»//ПНАНА, журнал «Азербайджан и азербайджанцы», № 1-2 Вол. 109-110, Баку-2011, s.223-228.
7. Azərbaycan Respublikasının xarici siyasət tarixi müstəqillik illərində//Azərbaycan Respublikası uğurlar və perspektivlər. 16 noyabr 2011-ci il. Beynəlxalq Elmi Konfransın Materialları. Bakı-2012,s.193-197.
8. Türkiyə respublikasi müasir regional geosiyasi proseslər kontekstində//TÜRKİYƏ-90, Türkiyə Cümhuriyyətinin müstəqilliyinin 90 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Konfransın Materialları, Bakı, 28 oktyabr 2013, Qafqaz universiteti nəşri, Bakı-2014, s. 63-65.
9. Правовой статус каспийского моря и проблемы геополитического соперничества// журнал «Гілея» науковий вісник, Випуск 90(№ 11), Київ, 2014, s.179-182.

**Махир Надир оглы Ибрагимов**

## Проблема Каспия во внешней политике прибрежных государств (конец XX - начало XXI вв.)

## РЕЗЮМЕ

Диссертация посвяшена комплексному исследованию и анализу «проблемы Каспия», возникшей в первые годы после распада Советского Союза и превратившейся в актуальную проблему современных международных отношений. В диссертационной работе изучаются межгосударственные обсуждения, посвященные режиму использования природных ресурсов Каспия и действующее вокруг него политические, экономические, научно-культурные интересы. Во введении диссертации обоснована актуальность темы, указаны хронологические рамки исследования, методологические основы, источниковая база диссертационной работы и определена степень иследования проблемы. А также определены цель и задачи исследования, указана новизна диссертационной работы.

В первой главе диссертации представлен, краткий обзор истории региона. Этот обзор необходим для освещения характера сотрудничества в Каспийском регионе. Также уделяется внимание региональной политике США и других государств Запада, имеющих интересы в бассейне Каспийского моря.

Во второй главе диссертации выясняются причины возникновения геополитических интересов в процессе обсуждения «проблемы Каспия», определяется степень соответствия национальных интересов прикаспийских государств реальностям. Рассматривается незаменимая роль Гейдара Алиева в формировании этой политики. В указанной главе диссертации также отмечается, что география экспорта, особенно маршруты транспортировки нефти, подчинены геополитике.

В третьей главе диссертационной работы исследуется динамика развития интеграционных процессов между государствами прикаспийского региона на уровне действующих экономичкских, а также культурных организаций.

В заключении системно изложены основные выводы диссертационного исследования, обобщены научные положения, имеющие научно – практическое значение, выдвинуты предложения рекомендательного характера.

**Mahir Nadir oglu İbrahimov**

# The Problems of the Caspian seashore states in foreign policy (the end of XX sentury-the beginning of XXI sentury)

**SUMMARY**

At the dissertation appeared the collapse at the first years of USSR. Modern international relations on of the actual problems changed the use of the Caspian regime belonging between the states consultings. But also around it movement, political-economic, scientific-cultural interests investigation, and carbohidrogen wealthy reserves working together with West counties, putting enough capital into districts with mutual understang and according useful establishing polisy widely investigation and analysis were led. Preface of the dissertation urgent of the topic, chronological frame of investigation, methodological bases based on source and the level of the learning topic was given here. At the preface also the aim and function was defined. Scientific news based upon the importance of theoretical and practical was put down.

In the first chapter to enlighten the character of relations on the Caspian district on the list of the investigation. Problems beforehand looking through the history of district to Iran and Russia. In this chapter was shown the interests of another countries, power-USA and West states policy towards to this district.

In the second chapter was shown reasons of appearing the geopolitical interests. The reality of the situation of the seashore states national interests were suitable and events were continued, followed, attracted to scientific investigation. In forming this policy was the irreplaceable role of Haydar Aliyeva. In this chapter also was given exporting oil geographically and it depends geopolitical transfer route and organized prioritets of foreign countries policy.

In the third chapter two or more relations was shown in the frame of the Caspian regions countries. It was show between them economic inteqration process, also cultural societies development and international relationship investigation of new possibilities.

At the results of the investigation were systematized, theoretic-practical importanse was generalized, it was given advices. The aim of investigation not only changed relations among regions on the Caspianshore states, but also develope political, economical and scientific-cultural relations and to give useful advices.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**МАХИР НАДИР оглы ИБРАГИМОВ**

# ПРОБЛЕМА КАСПИЯ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ ПРИБРЕЖНЫХ ГОСУДАРСТВ (конец XX - начало XXI вв.)

**Специальность: 5507.01–История международных отношений**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ – 2015**